1_Layout 1 10.05.2025 01:25 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 9 (697)

15 may 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# ULU ÖNDƏR AMALLARINDAN BÖYÜK QAYIDIŞA

## Ağdamın Kəngərli kəndi qayıdışın növbəti ünvanı oldu

**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "Ulu Öndər amallarından böyük qayıdışa" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

"Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm".

20 mart 1998-ci ildə Mərdəkandakı "Abşeron" sanatoriyasında Novruz bayramı münasibətilə qaçqın və məcburi köçkünlər üçün təşkil olunmuş bayram şənliyində Ulu Öndər Heydər Əliyev böyük inam və əminliklə dilə gətirmişdi bu fikirləri.

Həmin tarixi gündən 22 il keçdikdən sonra Azərbaycan xalqı başlanğıcını Ulu Öndər amallarından götürən milli ideyaların Prezident İlham Əliyev tərəfindən qətiyyətlə gerçəkləşdirildiyinə xoşbəxtliklə şahidlik etdi.

8 noyabr 2020-ci ildə qazandığımız Şuşa Zəfəri sayəsində xalqımız tarixindəki ən əlamətdar, qürurlu anlarına qədəm qoydu, Qələbə sevincini daddı, həsrət qaldığı Vətənə qovuşdu. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tam təmin olundu, ay-ulduzlu, üçrəngli bayrağımız Qarabağın zirvələrində əbədi dalğalandırıldı.

Şanlı Zəfər sayəsində məcburi köçkünlük yükündən azad olan yüzminlərlə vətəndaşımız düz bir qərinəlik Vətən sınağından sonra Böyük Qayıdış adlandırdığımız möcüzəvi gerçəkliyi yaşamağa başladı.

### 13 min nəfər doğma yurduna dönüb

Vətən müharibəsindən ötən 5 ilə yaxın müddət ərzində Qarabağ və Şərqi Zəngəzurun 13 yaşayış məntəqəsinə - Zəngilanın Ağalı, Tərtərin Talış, Laçının Zabux, Sus, Xocalının Ballıca, Ağdərənin Həsənriz, Suqovuşan, Ağdamın Sarıcalı kəndlərinə, eləcə də Laçın, Füzuli, Şuşa, Xocalı, Cəbrayıl şəhərlərinə qayıdış karvanları yola salınıb. Qurucu Lider İlham Əliyev tərəfindən yenidən təməlləri qoyulan və hərtərəfli işlər həyata keçirilən bu yaşayış məntəqələrinə artıq 13 mindən çox sakin qovuşdurulub.

Bu il mayın 10-da Ulu Öndər Heydər Əliyevin 102-ci doğum günündə isə 14-cü yaşayış məntəqəmizə növbəti köç oldu, Ağdam rayonunun Kəngərli kəndində qayıdış xoşbəxtliyi yaşandı. Həmin gün yolunu Ağdamdan – işğal dövründə düşmənin xarabalığa çevirdiyi, görənlərin dəhşətlə "Qafqazın Hirosiması" adlandırdığı və hazırda sürətlə dirçələn qədim yurdumuzdan salan Prezident İlham Əliyev rayonun Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak etdi. Kəngərliyə köçən ilk sakinlərə yeni evlərinin açarlarını şəxsən təqdim edən, onların qayıdış sevincini bölüşən Qarabağın qurucusu İlham Əliyev bir daha Ağdama yenidən həyatın qayıtdığının müjdəsini çatdırdı.

Qürurla nümunə çəkdiyimiz bu statistikanın özü də təməlləri 1994-cü ildə Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən Horadiz əməliyyatı sayəsində Füzuli rayonunun Horadiz qəsəbəsinə doğma sakinlərinin qaytarılması ilə atılan uğurlu Böyük Qayıdışın Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzura doğma sakinlərinin dönməsi ilə öz məntiqi zirvəsinə yetdiyini göstərir.

Təbii ki, 2016-cı ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qələbə çalınmış şanlı Aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlərinin qovuşdurulması da Böyük Qayıdışın mühüm halqalarından olub.

Bütün bunlar həm də uzaqgörən və müdrik siyasəti, mükəmməl diplomatik gedişləri, təkrarsız hərbi taktikası sayəsində ərazilərimizi işğaldan azad edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük vətənpərvər, dahi şəxsiyyət Heydər Əliyevin siyasi irsini layiqincə yerinə yetirməsini, onun Azərbaycanın gələcəyi ilə bağlı amallarını, arzularını gerçəkləşdirməsini parlaq şəkildə təcəssüm etdirir.

### Müqəddəs qayə

Hələ birinci dəfə hakimiyyətdə olduğu illərdə ölkəmiz adına misilsiz işlər gerçəkləşdirərək inkişafına nail olan Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə respublikamıza yenidən rəhbərliyə gəlməsi Azərbaycanın qurtuluşu oldu. Bu, sözün əsl mənasında, İlahi möcüzə idi ki, ölkəmizin işğalla üzləşdiyi, siyasi çəkişmələrin meydanına çevrildiyi, vətəndaş müharibəsinin astanasında olduğu və ən əsası 70 illik istibdaddan sonra yenicə qazandığı müstəqilliyini itirmək kimi təhlükəylə üz-üzə qaldığı dəhşətli məqamda dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan siyasi səhnəsində Günəş kimi doğmuşdu.

Öncə ölkəmizdə siyasi sabitliyi təmin etmək və Ermənistanla atəşkəs razılaşmasına nail olmaq kimi həyati əhəmiyyətli məsələləri həll edən Heydər Əliyevin gündəliyində duran ən vacib prioritet işğal edilmiş ərazilərimizin düşmən tapdağından azad olunması və dədə-baba torpaqlarından zorla didərgin salınmış vətəndaşlarımızın yurd-yuvalarına qayıdışı idi.

Əlamətdar günlərdə, tədbirlərdə hər zaman qaçqın və məcburi köçkünlərin yanında olan, onlara böyük diqqət və həssaslıqla yanaşan, problemlərinin həlli üçün vacib addımlar atan Ümummilli Lider Heydər Əliyev bəyan etmişdi: "İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir".

Çıxışlarında hər zaman məcburi köçkünlərin əzab-əziyyətlərini, yaşadıqları ağrıları dərindən duyduğunu ifadə edən Ulu Öndər əlamətdar günlərdə, bayramlarda mütləq məcburi köçkünlərin yanında olur, onlara tək olmadıqlarını hiss etdirirdi. 1999-cu ildə Novruz bayramı ərəfəsində Biləsuvardakı çadır düşərgəsində cəbrayıllı məcburi köçkün gənclərin toyunda Ulu Öndərin iştirak etməsi, gənc ailə ilə birgə qol götürüb oynaması, yaxud çadır şəhərciyində sac asıb yuxa çörək bişirən yaşlı qadını gördükdə doğmalıqla anasının da vaxtilə bu cür çörək bişirdiyini dilə gətirməsi indi də baxanları riqqətə gətirən və o günləri yada salan unudulmaz xatirələrdir.



Məcburi köçkün vətəndaşlarımızın vəziyyətinin yaxşılaşdırılması üçün əlindən gələn hər şeyi edən Ulu Öndərin şəxsi əzmi və qətiyyəti sayəsində əsası qoyulan uğurlu neft strategiyasının, "Əsrin müqaviləsi"nin sayəsində ölkəmizin əldə etdiyi ilk vəsaitdə məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi. İnsanlarımızın olduqca acınacaqlı halda yaşamağa məcbur olduqları çadır düşərgələri bir-bir ləğv edilməyə başlanıldı.

2001-ci il sentyabrın 7-də Ulu Öndərin "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" və 13 may 2002-ci il "Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" fərmanlarına uyğun olaraq, Biləsuvar, Füzuli və Ağdam rayonlarının ərazisində 5081 ailədən ibarət 22800 məcburi köçkün üçün bütün zəruri sosial-texniki infrastrukturu ilə birlikdə 20 qəsəbə salındı və Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi 2003-cü ilin iyun ayında ləğv edildi.

### Bütün çadır şəhərcikləri ləğv edildi

31 oktyabr 2003-cü ildə keçirilən andiçmə mərasimindəki çıxışında Heydər Əliyev siyasətini davam etdirəcəyini bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev söyləmişdi: "Bilirsinizki, neft fondundan ayrılan vəsait ilk növbədə Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın-köçkünlərə, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün sərf olunur. Cənab Prezident Heydər Əliyevin fərmanları ilə bu məqsəd üçün 70 milyon dollar ayrılmışdır və qaçqın-köçkünlərdən ötrü yeni qəsəbələr, şəhərciklər, evlər tikilir. On minlərlə qaçqın və köçkün artıq çadır düşərgəsindən çıxarılaraq müasir evlərə köçürülüb və bu proses davam etdiriləcəkdir. Biz gələcəkdə də bu məsələyə böyük diqqət göstərəcəyik. Əminəm ki, yaxın gələcəkdə işğaldan əziyyət çəkən bütün qaçqın və köçkünlər müasir şəraitlə təmin olunacaqlar".

Sözügedən tarixdəki andiçmə mərasimindəki nitqində Prezident İlham Əliyev həm də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmiz üçün ən ağır problem olduğunu bildirmiş və onun yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna biləcəyini bəyan etmişdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir…

…Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Qaçqınların və məcburi köçkünlərin problemlərinin həllini ən başlıca vəzifələrindən biri kimi müəyyənləşdirən dövlətimizin başçısı İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsi idi ki, 2007-ci ildə ölkəmizdə birdənə də olsun çadır şəhərciyi qalmadı. Eyni zamanda 2020-ci ilə - Vətən müharibəsinə qədər ölkədə məcburi köçkünlər üçün 100-dən çox qəsəbə-şəhərcik salındı. Ötən müddət ərzində Azərbaycanda 300 mindən çox məcburi köçkün mənzillərlə, fərdi evlərlə təmin olundu, həmçinin onların problemləri ardıcıl şəkildə öz həllini tapdı.

Ancaq ölkəmizin Lideri hər zaman vurğulayırdı ki, bu yaşayış yerləri müvəqqəti xarakter daşıyır. Torpaqlarımız işğaldan mütləq azad ediləcək və məcburi köçkün vətəndaşlarımız üçün öz dədə-baba torpaqlarında evlər tikiləcək.

### Zəfər müjdəsi, diriliş marşı

27 sentyabr 2020-ci ildə bütün məcburi köçkünlərin ümidləri də bir anda işarmağa başladı...

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Qarabağdan qanadlanan qələbə müjdələri, "Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı, Şuşa, Laçın, Ağdam, Kəlbəcər… bizimdir, Qarabağ Azərbaycandır!" hayqırtıları bütün məcburi köçkünlərin diriliş marşına çevrildi…

Üzərindən üç il keçdikdən sonra, yenə də payız çağında - 19-20 sentyabr 2023-cü ildə keçirilən antiterror tədbirlərində suverenliyimiz tam təmin olundu. Bu parlaq qələbə bizə bütöv Azərbaycanı bəxş etdi…

Qalib Lider İlham Əliyevin qazandığı Şuşa, Xankəndi zəfərləri Azərbaycan xalqına Qarabağ və Şərqi Zəngəzurun quruculuq təntənəsini, Böyük Qayıdış xoşbəxtliyini yaşatdı.

Zəfərdən sonra bu xoşbəxtliyi ilk yaşayanlar, doğma Vətənə dönüşün ilk "qaranquşlar"ı isə Zəngilanın Ağalı kəndinin sakinləri oldular.

Ardınca yuxarıda sadaladığımız yaşayış məntəqələrinə də qayıdış köçləri həyata keçirildi və bu möhtəşəm proses hazırda da davam edir.

Vətən müharibəsi bitdikdən cəmi bir gün sonra üzünü keçmiş məcburi köçkünlərə tutaraq "siz artıq köçkün deyilsiniz" müjdəsini çatdıran Qarabağın xilaskarı İlham Əliyev bu vətəndaşlarımızın ürəklərindəki bir qərinəlik Vətən nisgilini silib qayıdış xəbəri ilə şadlandırdı. Eyni zamanda "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik" deyən xalqımızın dahi oğlu Heydər Əliyevin bu sarsılmaz inamını, əminliyini Böyük Qayıdışla gerçəkləşdirərək, həm də Ulu Öndərin ruhunu şad etdi.



## DƏRİN HÖRMƏT VƏ EHTİRAMLA ANIRIQ



**DİN-in şəxsi heyəti Fəxri xiyabanı ziyarət edib**

**Mayın 10-da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasından 102 il ötdü.**

Qədirbilən xalqımız Vətənimizi taleyüklü məqamda parçalanma və müstəqilliyini itirməsi təhlükəsindən fədakarlıqla xilas edib, ölkəmizi sabitlik, rifah və tərəqqi yoluna çıxaran xilaskarını dərin hörmətlə yad etdi.

Ümummilli Liderin ildönümü münasibəti ilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin əməkdaşları mayın 9-da Fəxri xiyabana gedərək müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıblar.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 10.05.2025 01:41 Page 1



## XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

Mayın 10-da Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Mərasimdə daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov iştirak edib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.



Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.



Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik Bəhruz Kazımov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərilərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb. Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə həmçinin xalqımızın şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində və antiterror tədbirlərində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daim Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər. Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.



Qeyd edək ki, hərbi andiçmə mərasimi Daxili Qoşunların digər 3 hərbi hissəsində də keçirilib.

**Mətbuat xidməti**

## "HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin tədbirlər planına əsasən may ayının 8-də 17072 saylı hərbi hissənin şəxsi heyəti ilə hərbi hissənin klubunda komitənin Gəncə-Daşkəsən regional bölməsi tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev siyasətində milli-mənəvi dəyərlər" mövzusunda tədbir keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin Gəncə-Daşkəsən regional bölməsinin müdiri Həsən Məmmədov, İmamzadə məscidinin imamı İlham Abbasov və Gəncə-Daşkəsən regional bölməsinin əməkdaşları iştirak ediblər.



Tədbirə başlamazdan əvvəl xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olmuş silahdaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sonra Dövlət Himni ifa olunub.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin Gəncə-Daşkəsən regional bölməsinin müdiri H.Məmmədov, İmamzadə məscidinin imamı İ.Abbasov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycan tarixində müstəsna rolu, dövlətimizin inkişafı və müstəqil dövlət kimi formalaşmasında əvəzsiz xidmətlərini qeyd edib, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması



istiqamətində tarixi fəaliyyətini tədbir iştirakçılarına bir daha çatdırıblar. Həmçinin qonaqlar öz çıxışlarında Milli Lider Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğu sahəsində Vətən müharibəsindəki tarixi qələbə ilə başa çatmış uğurlu siyasi nailiyyətlərini qeyd ediblər. Milli-mənəvi və dini dəyərlər üzrə tapşırıqlarını, tövsiyələrini çatdırıblar.

Sonda tədbir iştirakçılarına "Heydər Əliyev siyasətində milli-mənəvi dəyərlər" mövzusunda sənədli videofilm nümayiş olunub.

**Mətbuat xidməti**

## DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində xalqımızın tarixində və



taleyində əvəzsiz rolu olan, Azərbaycanı məhv olmaq təhlükəsindən qoruyan, müstəqil dövlətimizin banisi və xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Sonra Ümummilli Liderin dövlətçilik tariximizdəki misilsiz xidmətləri barədə çıxış edən daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev onun Azərbaycana rəhbərlik etdiyi illərin müasir tariximizə sabitlik, milli dövlət quruculuğu, inkişaf və müstəqilliyin möhkəmləndiyi dövr kimi həkk olunduğunu bildirib. Qeyd edib ki, Azərbaycan tarixində keyfiyyətcə yeni mərhələlərin, milli inkişafı şərtləndirən fundamental islahatların sağlam təməllərini yaradan Ümummilli Lider demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu ölkənin əsas inkişaf yolu kimi müəyyənləşdirdi və respublikamızı qlobal miqyasda nüfuzlu, etibarlı tərəfdaş kimi tanıda bildi.

Ölkə vətəndaşlarına gələcəyə inam yaratmaqla və onları milli mənafelər ətrafında sıx birləşdirməklə real müstəqilliyimizin möhkəm təməlini qoyan Heydər Əliyev bu təməlllər üzərində dövlətçilik sütunlarını ucaltdı, özü də Ümummilli Lider zirvəsinə yüksəldi. Müstəqil Azərbaycanın tarixində yeni mərhələnin, böyük quruculuq dövrünün başlanması daxili işlər orqanlarının da fəaliyyətində öz əksini tapdı.

Nazir müavini qeyd edib ki, Ümummilli Lider yenidən formalaşdırdığı, daxilən saflaşdırdığı müstəqil Azərbaycan Polisinin fəaliyyətini, öz böyük təşkilatçılıq istedadı ilə ölkədaxili sabitliyin təmin edilməsinə yönəltdi. Məhz Heydər Əliyevin rəhbərliyi və nəzarəti altında görülən tədbirlə əllərdə olan on minlərlə silah və sursat yığıldı. Yüzlərlə cinayətkar dəstə zərərsizləşdirildi. 1994-1996-cı illərdə bir çox təhlükəli və xüsusilə ağır cinayətlərin, o cümlədən dövlət çevrilişlərinin qarşısı alındı.



Ümummilli Lider tərəfindən respublikanın daxili işlər orqanlarında fəaliyyətin təşkilati-hüquqi bazasının möhkəm təməli yaradıldı. 1993-2003-cü illərdə onlarla qanun, fərman və sərəncam imzalandı, nazirlik sistemində islahatlar aparılaraq dövrün tələbinə uyğun yeni qurumlar təsis edildi.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Əliyevşünaslıq şöbəsinin müdiri, professor Ədalət Qasımov isə çıxışında Azərbaycanın gələcəkdə



dövlət müstəqilliyinin elan edilməsi üçün real əsasların hələ Ümummilli Lider Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdığını deyib. Məhz onun Azərbaycana rəhbərlik etdiyi həmin illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı.

Ümummilli Lider Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən ətraflı bəhs edən Ə.Qasımov bildirib ki, şərəfli ömür yolunu ölkəmizin tərəqqisinə və xalqımızın parlaq gələcəyinə həsr edən Ümummilli Lider dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb.

Daha sonra tədbir iştirakçıları Ümummilli Liderin həyat və fəaliyyətinə həsr olunmuş "İz" sənədli filminə baxıblar.

**DİN-in Mətbuat xidməti**

## DİN-in ƏMƏKDAŞLARI ULU ÖNDƏRİN ANADAN OLMASININ 102-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AĞACƏKMƏ AKSİYASI KEÇİRİB



Müstəqil Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar Daxili İşlər Nazirliyinin əməkdaşları və hərbi qulluqçuları Suraxanı rayonu ərazisindəki yaşıllıq massivində növbəti ağacəkmə kampaniyası keçiriblər.

Əvvəlcə polis əməkdaşları və hərbi qulluqçular ərazidə olan bitkilərə qulluq göstərib, yaşıllıq zonasında təmizlik işləri aparıblar. Sonra yerli iqlimə uyğunlaşdırılmış zeytun tinglərini əkib, onların suvarılmasını təmin ediblər. Tinglərin küləkdən qorunması və normal böyümələri üçün qoruyucu dirəklər basdırıblar.

Ərazinin nəzarətdə saxlanılması, əkilmiş ağaclara mütəmadi qulluq göstərilməsi üçün müvafiq tədbirlər bundan sonra davam etdiriləcəkdir.

**DİN-in Mətbuat xidməti**

## DÖYÜŞ HAZIRLIĞI İLƏ FƏRQLƏNƏN İSTEHKAMÇI YARIMQRUPU

17071 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında mühüm əhəmiyyət kəsb edən bölmələrdən biri xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur. Yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə



sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.

Yarımqrupun komandiri-baş istehkamçısı gizir Murad Haqverdiyevdir. 2014-cü ilin aprel ayından Daxili Qoşunların sıralarındadır. Müxtəlif vəzifələrdə özünü məsuliyyətli, nizam-intizamlı hərbi qulluqçu kimi nümayiş etdirib. 2015-ci ildən hazırkı vəzifədədir. Peşəsinin sirlərini öyrənmək məqsədilə həm respublikamızda, həm də xarici ölkələrdə təşkil edilən kurslarda layiqincə iştirak edib, kursları uğurla tamamlayıb. Vətən müharibəsi iştirakçısıdır. Füzuli, Xocavənd, Şuşa rayonlarında və Laçın dəhlizində aparılan döyüş əməliyyatlarında qəhrəmancasına döyüşüb.

Komandir yarımqrupun fəaliyyətindən danışarkən bildirib ki, hərbi hissə komandirinin təsdiq etdiyi müvafiq plana əsasən, şəxsi heyətlə mütəmadi olaraq məşğələlər keçirilir. Hər həftənin şənbə günü ixtisas hazırlığı üzrə nəzəri və praktiki məşğələlər təşkil olunur. Bundan əlavə, yarımqrupun hərbi qulluqçuları ərazidə minaların axtarılması, tapılması, minaların əraziyə döşənməsi, minalı ərazidən keçidlərin açılması, avtomobillərin yoxlanılması, şübhəli bilinən bağlamalara təhlükəsizlik qaydalarına əməl edilərək yaxınlaşma, səyyar minaaxtaran cihazlarla işləmə üsullarının öyrədilməsi və başqa mövzularda məşğələlərə cəlb olunurlar.

Bundan əlavə, gizir M.Haqverdiyev istehkamçıların döyüş hazırlığının ayda iki dəfə hərbi hissə komandiri və xüsusi təyinatlı dəstənin komandiri tərəfindən yoxlanıldığını sözlərinə əlavə etdi. Peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə hərbi qulluqçuların mütəmadi olaraq müxtəlif kurslara cəlb olunduğunu da qeyd etdi.

O, nümunəvi hərbi qulluqçulardan baş çavuş Elmir Rəcəbov, çavuşlar Zahid Səlimov, Mustafa İbrahimli və Amid Heydərovun adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 10.05.2025 01:24 Page 1



# FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏDƏN 80 İL ÖTÜR



Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya Müharibəsində SSRİ-nin qazandığı şanlı Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 minə yaxın oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

İkinci Dünya Müharibəsinin başlanması ilə əlaqədar olaraq baş komandan Stalinin 1941-ci il 18 oktyabr tarixli əmrinə əsasən, azərbaycanlılardan ibarət 77-ci dağatıcı diviziyası, 223-cü milli atıcı, 396-cı milli atıcı, 402-ci və 416-cı milli atıcı diviziyaları yaradıldı və onlar Zaqafqaziya hərbi dairəsində yerləşdirilmiş 44-cü, 45-ci və 46-cı orduların tərkibinə daxil edildilər.

416-cı milli atıcı diviziyanın tərkibinin, xüsusilə də komanda heyətinin 92%-i azərbaycanlılardan ibarət idi. 1942-ci ilin payızında diviziya Şimali Qafqazda 44-cü ordu, az sonra 58-ci ordu tərkibində Mozdok istiqamətində döyüşlərə başladı. Taqanroq şəhərinin azad edilməsində fəal iştirakına görə "Taqanroq diviziyası" adına layiq görülüb.

1943-cü ilin iyulundan sonra diviziyaya general-mayor Heybət Heybətov komandanlıq etmişdir. Azərbaycan hökumətinin ardıcıl köməyi nəticəsində diviziya müharibənin sonuna qədər öz milli tərkibini saxlaya bildi.

Diviziya Qafqazdan Berlinə kimi 2500 km müzəffər döyüş yolu keçmiş, düşmənin 23 minə yaxın əsgər və zabitini məhv etmiş, 5474 nəfər əsir götürmüş, onların istifadəsində olan çoxlu döyüş texnikasını işlək vəziyyətdə qənimət kimi ələ keçirmişdi. Diviziyanın 14396 nəfər əsgər və komandiri SSRİ-nin orden və medalları ilə təltif edilmişdi. Komandir və əsgərlərin bir çoxuna xarici ölkələrin orden və medalları verilib.

Müharibə illərində Azərbaycanın iqtisadiyyatı da müharibə tələblərinə uyğunlaşdırılmış, bütün sənaye sahələri cəbhə üçün çalışıb.

Qələbənin təmin edilməsində Azərbaycanın böyük xidmətləri haqqında xalqımızın Ümummilli Lideri Heydər Əliyev demişdir: "Tarix bu gün də bilməlidir ki, İkinci Dünya Müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur".

Böyük Qələbənin qazanılmasından 80 il keçsə də, İkinci Dünya Müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Cari il mayın 9-da Azərbaycan Respublikasının Komando briqadasının parad heyətinin faşizm üzərində Qələbənin 80-ci ildönümünə həsr olunmuş hərbi parad çərçivəsində Moskvada Qızıl meydanda təntənəli marşla keçidi bunun bariz nümunəsidir.

**Mətbuat xidməti**

# MƏRKƏZİ ANBARLARIN FƏALİYYƏTİ HAZIRKI TƏLƏBLƏRƏ CAVAB VERİR

Bu gün Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi vacib məsələlərdən biri də qoşunların maddi-texniki təminatıdır. Maddi-texniki təminat bazasının daha da artırılması ciddi nəzarətdə saxlanılır və bu istiqamətdə genişmiqyaslı işlər görülür. Hərbi hissələrin lazımi təminat növləri ilə təchizatında əsas iş 64412 saylı hərbi hissənin mərkəzləşdirilmiş anbarların üzərinə düşür.



Hərbi hissənin komandiri polkovnik-leytenant Telman Əliyev qeyd etdi ki, qoşunların mərkəzi anbarları təyinatı baxımından xüsusi və çox məsuliyyətli vəzifələri uğurla icra edir. Daxili Qoşunların Baş İdarəsinin və hərbi hissələrinin vaxtlı-vaxtında, müvafiq normativ sənədlərin tələblərinə əsasən mərkəzləşdirilmiş maddi-texniki təminatını hərbi hissə həyata keçirir: "Müxtəlif təşkilatlardan və müəssisələrdən hərbi hissəyə daxil olan bütün növ əmlaklar, o cümlədən ərzaq məhsulları ictimai nəzarət komissiyasının iştirakı ilə yoxlanılaraq anbarlara qəbul edilir. Sonra Daxili Qoşunlar komandanlığının müvafiq əmr və göstərişlərinə əsasən, hərbi hissələrin təminatına buraxılır. Hərbi hissədə ərzaq, ərzaq əmlakı, əşya, avtomobil və zirehli texnika ehtiyat hissələri, YSM, silah-sursat, mənzil-istismar, rabitə və AİS, tibb, mühəndis, kimya, xəritə, mədəni-maarif, aviasiya və ehtiyat hissələri anbarları və 2 emalatxana (silah təmiri, rabitə emalatxanaları) mövcuddur. Əsas diqqət yetirilən məsələlərdən biri də anbarlarda və emalatxanalarda səliqə-sahmana, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməsi, hərbi qulluqçuların bu qaydalarla bağlı təlimatlandırılmasıdır".

Anbar rəisləri hissə komandanlığı tərəfindən gündəlik olaraq qarşıya qoyulan tapşırıqları uğurla icra edirlər: "Şəxsi heyət xidməti fəaliyyətini rəhbər sənədlərin tələbləri əsasında qurur. Hər bir hərbi qulluqçu üzərinə düşən tapşırıqların məsuliyyətini tam dərk edir və funksional vəzifələrini uğurla yerinə yetirir"

Anbarların etibarlı mühafizəsinin təmin olunması üçün burada müvafiq siqnalizasiya sistemi quraşdırılıb. Bütün anbarlar yanğından mühafizə vasitələri ilə təchiz edilib. Komandir nümunəvi xidməti, nizam-intizamı ilə fərqlənən hərbi qulluqçulardan rabitə və AİS əmlakları anbarlarının rəisi gizir İbrahim Abbaszadənin, ərzaq anbarlarının rəisi gizir Kamil Qiyaszadənin və kimya əmlakları anbarlarının rəisi gizir Zirəddin Məmmədovun adlarını çəkdi, onların xidmətlərinə məsuliyyətlə yanaşan, savadlı, bacarıqlı hərbi qulluqçular olduqlarını diqqətə çatdırdı.

Rabitə və AİS əmlakları anbarlarının rəisi gizir İbrahim Abbaszadə anbarlarda olan maddi-texniki vəsaitlərin düzgün mədaxil-məxaricinə, onların istifadəyə buraxılması üzrə sənədlərin tərtib edilməsinə, uçotun dəqiq aparılmasına, daxili qaydalara riayət olunmasına, sanitar vəziyyətə, yanğından mühafizəyə və ümumilikdə, bütün təhlükəsizlik tədbirlərinin qorunub saxlanılmasına cavabdehdir. Daxili Qoşunların Baş İdarəsinin və hərbi hissələrin rabitə və AİS əmlakları ilə təminatını hərtərəfli və fasiləsiz həyata keçirmək, anbarlarda saxlanılan əmlakların nomenklaturasını bilmək, onların komplektliyinə, mövcudluğuna, o cümlədən keyfiyyətinə nəzarət etmək də anbar rəisinin funksional vəzifələrinə daxildir.

O bildirdi ki, gün ərzində anbarlarda olan əmlakların dəqiq hesabatı aparılır, mədaxil-məxaric sənədləri məsul icraçıya təqdim olunur. Bundan başqa, ayda bir dəfədən az olmayaraq, məsul icraçı ilə tutuşdurma aparılır.

Rabitə və AİS əmlakları anbarlarının məsul icraçısı gizir Könül Səmədova da qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir. O, qeydiyyat kitablarını və blanklarını, habelə anbarlardan əmlakların buraxılması üzrə sənədləri düzgün tərtib edir, uçot kitablarını vaxtlı-vaxtında hazırlayır, sənədlərin qorunub saxlanılmasına məsuliyyətlə yanaşır.




Hərbi hissədə fəaliyyət göstərən digər anbarlar kimi kimya əmlakları anbarlarının xidməti təqdirəlayiqdir. Bu işdə anbar rəisi gizir Zirəddin Məmmədovun rolu böyükdür. O, 2013-cü ildən hərbi hissədə xidmət edir. Funksional vəzifələrinin icrasına vicdanla yanaşır, bacarıqlı hərbi qulluqçu kimi yoldaşlarına nümunədir.

Gizir Z.Məmmədovla söhbət zamanı məlum oldu ki, maddi-texniki vasitələrin anbarlardan verilib-alınmasına, düzgün saxlanılmasına, uçotun dəqiq aparılmasına və faktiki mövcudluğuna, anbarlarda daxili qaydalara riayət olunmasına tərəfindən nəzarət olunur. Bağlanmış müqavilə şərtlərinə, tələblərinə uyğun müəssisə və təşkilatlardan gətirilmiş maddi-texniki vasitələri təqdim olunmuş qaimələr əsasında qəbul etmək, Daxili Qoşunların Baş İdarəsi, Hərbi İnstitutun və hərbi hissələrin maddi-texniki vasitələrlə təminatını həyata keçirmək onun funksional vəzifələridir. O, maddi-texniki vasitələrin nomenklaturasını və anbarlarda saxlanma normalarını, eləcə də yenilənməsi, sınaqdan keçirilməsi və təkrar konservasiya edilməsi müddətlərini bilir, keyfiyyətinin vəziyyətinə diqqət yetirir və vaxtından əvvəl korlanması, itirilməsi hallarına yol vermir. Vasitələrin uçotunun dəqiq, səliqəli aparılması, qeydiyyat kitablarında ayda bir dəfədən az olmayaraq xidməti fəaliyyətin tam yoxlanılmasını və ilin sonunda uçot məlumatlarının məsul icraçının uçotu ilə üzləşdirilməsini təmin edir.



Görülən işlərdə kimya əmlakları anbarlarının məsul icraçısı gizir Aygün Əliyevanın da əməyi olduğunu nəzərimizə çatdıran gizir Z.Məmmədov onu çalışqan və məsuliyyətli hərbi qulluqçu kimi xarakterizə etdi.

**kapitan Nigar Ağayeva**

*Qazilərimiz*

# PEŞƏKAR HƏRBÇİ VƏ CƏSARƏTLİ DÖYÜŞÇÜ MƏRAMI

Tarix boyu hərbi təcavüz nəticəsində işğal olunan torpaqlar güc tətbiq edilərək və qan tökülərək geri alınıb. Azərbaycan dövləti və xalqı da uzun illər düşmən tapdağında qalan ərazilərini döyüş meydanında hərbi zəfər qazanaraq azad edib.

44 günlük Vətən müharibəsi, habelə antiterror tədbirlərindən sonra "dəmir yumruq" sözləri mübarizliyimizin, rəşadətimizin və yenilməzliyimizin ifadəsinə çevrilib. Qələbə naminə neçə-neçə igid oğul həyatını qurban verib, eləcə də qazi olub. Onlar ürəklərində Vətən sevgisi, ləyaqət hissi, kişilik qüruru, qalib olmaq əzmi ilə ön cəbhədə özlərini od-alova ataraq mətinliklə vuruşublar.

24 saatdan az bir vaxtda başa çatan və erməni separatizmini süquta uğradan lokal xarakterli antiterror əməliyyatı zamanı Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti Müzəffər Ali Baş Komandan tərəfindən qarşıya qoyulan döyüş tapşırığını layiqincə yerinə yetirib. Antiterror əməliyyatından qazi kimi qayıdan döyüşçülərdən biri də ehtiyatda olan gizir Eyvazov Əbülfəz Gülağa oğludur.

O, 1991-ci il sentyabrın 13-də o vaxt Əli-Bayramlı adlanan, hazırkı Şirvan şəhərində doğulub. Gülağa Eyvazov və Validə Eyvazovanın dörd övladından biri, yaşca ortancılıdır, iki bacısı, bir qardaşı var. Ailədə milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunub. Valideynləri onu savadlı, zəhmətkeş, sağlam həyat tərzini qoruyan övlad kimi yetişdiriblər. Yeniyetmə vaxtından idmanın cüdo və sərbəst güləş növləri ilə həvəslə məşğul olub, qatıldığı yarışlardan birində 2-ci yeri tutub.

Şirvan şəhərində yerləşən şəhid Məftun Osmanov adına 20 saylı tam orta məktəbin məzunudur. Orta məktəbdə oxuyarkən fizika, kimya və riyaziyyat fənlərinə daha çox maraq göstərib. Məktəbli olduğu dövrdən hərbçi peşəsinə rəğbət bəsləyib, gördüyü hərbi forma daşıyan şəxslərə həmişə hörmətlə yanaşıb.

2008-ci ildə Əbülfəz Gəncə şəhərindəki Azərbaycan Texnologiya Universitetinə qəbul olunaraq elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi ixtisası üzrə qiyabi formada ali təhsil almağa başlayıb.

2009-cu ilin oktyabr ayından 2011-ci ilin aprel ayınadək Gəncə şəhəri və Goranboy rayonunda Müdafiə Nazirliyinin "N" saylı hərbi hissələrində müddətli həqiqi hərbi xidmət keçib. Öncə ona pulemyotçu, sonra isə fərdi bacarıqları, təhsili nəzərə alınaraq manqa komandiri vəzifələri həvalə olunub. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək ordu sıralarından alnıaçıq evə qayıdıb.

Daha sonra ali təhsilini davam etdirərək 2015-ci ildə tamamlayıb. Ancaq universitetdən məzun olanadək həyatını hərbi xidmətə bağlamağı qərarlaşdırıb. Qiyabi təhsili buna imkan verib. 2013-cü ilin iyul ayında Əbülfəz DİN-in Daxili Qoşunlarının sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun meteomüşahidəçi-atıcısı, xüsusi təyinatlı dəstəsinin snayper qrupunun snayperi, 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper qrupunun yarımqrup komandiri, atəş təminatı qrupunun iriçaplı pulemyot yarımqrupunun komandiri, 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi, habelə post-patrul xidməti bölmələrinin heyət rəisi vəzifələrində xidmət edib. Təyin olunduğu vəzifələrdə komandanlığın etimadını doğruldub, zəngin təcrübə toplayıb. Silahdaşlarının hörmətini qazanıb. Döyüş və mənəvi-psixoloji hazırlığında, xidməti fəaliyyət üzrə çoxşaxəli tapşırıqların icrasında çalışqanlığı və əzmkarlığı ilə fərqlənib. Tabeliyindəki şəxsi heyətin təlim-tərbiyəsini daim ciddi nəzarətdə saxlayıb. Şəxsi nümunəsi ilə onları xidmətdə uğurlar əldə etməyə həvəsləndirib. Dəfələrlə komandanlıq tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

Müddətdən artıq həqiqi hərbi xidməti dövründə Əbülfəz Birinci Avropa Oyunları, digər mötəbər idman yarışları, Bakının Nardaran qəsəbəsində keçirilən xüsusi əməliyyat, Gəncə şəhəri və ətraf rayonların ərazilərində koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması, Vətən müharibəsi gedişində Gəncədə komendant postlarında xidmətin aparılması, işğalına son qoyulan Şuşa, Laçın şəhərləri, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd rayonlarında təhlükəsizliyin qorunması zamanı yüksək peşəkarlıq, ayıq-sayıqlıq, qətiyyət göstərib.




17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin komandirinin müavini kapitan Eltun Orucov, həmin bölmənin heyət nəfəri-atıcısı kiçik çavuş İsrail Zayidov, xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı baş əsgər Asif Məmmədov, PPXB-nin sürücü-atıcısı əsgər Roman İbrahimov, qazilər, ehtiyatda olan kiçik çavuş Bakir Paşayev, ehtiyatda olan əsgər Ramin Əliyev Əbülfəz haqqında suallarımı cavablandırdılar. Onların sözlərinə görə, Əbülfəz peşəsini sevən, hərtərəfli biliklərə malik, xidmət mənafeyini üstün tutan, heç bir çətinlik qarşısında ruhdan düşməyən, bacarıqlarını təkmilləşdirən, bacardıqlarını öyrədən, silahdaşlarına qayğı ilə yanaşan, eləcə də onlara gərəkli məsləhətlər verən, ədəb-ərkanlı, təmkinli, vətənpərvər hərbi qulluqçu olub. Təlimlərdə fiziki, atəş və taktiki hazırlığı üzrə yüksək məharəti ilə seçilib. Xidmətdə dəqiqlik, çeviklik, icraçılıq kimi keyfiyyətləri diqqət çəkib.

Müsahiblərim olan zabit, müddətdən artıq xidmət edən hərbi qulluqçular və qazilər məlumat verdilər ki, 2023-cü il sentyabrın 19-dan 20-dək Qarabağ bölgəsində erməni işğalçılarına qarşı keçirilmiş antiterror əməliyyatında Əbülfəz də iştirak edib. Vətən müharibəsi günlərində erməni ordusunun Gəncəni raket atəşinə məruz qoyduğunun şahidi olan döyüşçü bu əməliyyata düşmənə qarşı qəzəb və qisas hissi ilə yollanıb. Dəstə komandiri polkovnik-leytenant Rəşad Hüseynovun rəhbərliyi altında şəxsi heyət sentyabrın 20-nə keçən gecə döyüş tapşırığını yerinə yetirmək üçün Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndinə (hazırda bu kənd Ağdərə rayonuna daxildir) göndərilib. Bu istiqamətdə avtomobillərlə hərəkət edərkən yolda işğalçıların ilk pusqusu ilə üzləşiblər. Hərbi qulluqçularımız cəsarətlə vuruşaraq ermənilərin atəş nöqtələrini susdurublar. Əbülfəz sol qulağından yüngül xəsarət alıb. Şəxsi heyətin bir qrupu piyada şəklində yol ilə hərəkəti davam etdirib. Əbülfəzə öndə gedərək qarşıdakı ərazidə müşahidə aparmaq tapşırılıb. Düşmənin ikinci pusqusuna düşərək o, partlayış travması alıb, atıcı silahlardan atılan güllələrdən yayınmaq üçün özünü yaxınlıqdakı dərəyə atıb, nəticədə qayaya çırpılıb, baş-beyin nahiyəsi möhkəm silkələnib, ayaqları, həmçinin onurğa sütunu zədələnib, huşunu itirib. Ayılanda yanında döyüşçülərdən baş əsgər A.Məmmədovu görüb. Atışma səngiyəndən sonra oradan arxaya çəkiliblər. Döyüşdən sonra Kəlbəcərdəki hərbi qospitala təxliyyə edilib. Hərbi qospitaldan Gəncədəki mülki xəstəxanaya, nəhayət Daxili Qoşunların Hərbi Qospitalına göndərilib.

İkinci pusqunu dəf edərkən dəstənin hərbi qulluqçularından 11 nəfər ərazidəcə şəhid olub, 3 nəfər isə yaralansa da sağ qalıb. Bu gün onlar qazidirlər. Dəstə komandiri polkovnik-leytenant R.Hüseynov döyüşdə ağır yaralanaraq növbəti gün hərbi qospitalda şəhadətə ucalıb.

Daxili işlər nazirinin 30 iyun 2022-ci il, eləcə də 5 mart 2024-cü il tarixli müvafiq əmrləri ilə gizir Ə.Eyvazov "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli və "Şücaətə görə" medalları ilə təltif edilib.

2024-cü ilin may ayında Əbülfəz səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb.

Əbülfəz hazırda Abşeron rayonundakı Yeni Bakı yaşayış kompleksində yaşayır, səhhəti ilə əlaqədar işləmir, müalicəsini davam etdirir. Günay xanımla evli olan qazinin Ümrə, Hüseyn və Həsən adlı övladları var. Uşaqlar məktəblidirlər.

Qeyd edim ki, Əbülfəzin qardaşı gizir Ələkbər Eyvazov 67987 saylı hərbi hissədə xidmət edir. Xalası oğlu gizir İlham Abbasov isə Vətən müharibəsi iştirakçısıdır.

Qazilik qürur və ləyaqət məqamıdır. Vətən naminə döyüşçü missiyasını cəsurluqla yerinə yetirərkən sağlamlığını itirmiş hər bir oğul xalqımızın dərin hörmətini və rəğbətini qazanıb. Onların şərəfli sıralarında Əbülfəz də var.

**Yalçın Abbasov**

4_Layout 1 10.05.2025 01:38 Page 1



## MÜASİR TƏDRİS MODELİNDƏ YENİ YANAŞMA: ONLAYN MÜŞTƏRƏK DƏRSLƏR TƏCRÜBƏ MÜBADİLƏSİNİN TƏMİNATÇISIDIR

Müasir dövrdə hərbi təhsilin səmərəliliyi təkcə ənənəvi tədris metodları ilə deyil, eyni zamanda rəqəmsal texnologiyaların imkanlarından sistemli şəkildə istifadə olunması ilə birbaşa əlaqəlidir. Daxili Qoşunların Hərbi İnstitutu bu istiqamətdə qabaqcıl yanaşmaları tətbiq etməklə beynəlxalq və yerli təhsil tərəfdaşları ilə müştərək onlayn dərslərin təşkili praktikasını mütəmadi şəkildə həyata keçirir.

Cari il aprelin 25-də Türkiyə Respublikasının Jandarma Akademiyası ilə "Atəş hazırlığı", mayın 1-də isə Azərbaycan Respublikasının Polis Akademiyası ilə "İnzibati hüquq" fənləri üzrə keçirilmiş onlayn dərslər bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Tədris sessiyalarında hər iki tərəfin kursantları öz auditoriyalarında videobağlantı vasitəsilə dərslərə eyni vaxtda qoşulmuş, interaktiv təqdimatlar və fikir mübadilələri vasitəsilə biliklərini qarşılıqlı şəkildə zənginləşdirmişlər.

Bu kimi tədbirlər yalnız fənn biliklərinin aşılanması ilə məhdudlaşmır, eyni zamanda müxtəlif hüquq-mühafizə və təhlükəsizlik qurumlarının tədris yanaşmalarının, nəzəri və praktiki metodların qarşılıqlı şəkildə öyrənilməsinə şərait yaradır. Müşahidələr göstərir ki, belə interaktiv dərslər kursantların analitik təfəkkürünün inkişafına, qarşılıqlı əməkdaşlıq və peşəkar ünsiyyət bacarıqlarının formalaşmasına müsbət təsir göstərir.

Qeyd edilməlidir ki, Hərbi İnstitutun tədris planına əsasən bu cür tədbirlər müntəzəm xarakter daşıyır və həm milli, həm də




beynəlxalq təcrübənin inteqrasiyasını hədəfləyir. Bu yanaşma gələcək zabitlərin kompleks biliklərə yiyələnməsini, qarşılıqlı etimad və operativ əməkdaşlığın daha erkən mərhələdə təşviq olunmasını təmin edir. Onlayn müştərək dərslər yalnız informasiya ötürülməsi vasitəsi deyil, həm də ortaq peşə mədəniyyətinin formalaşdırılmasında strateji vasitə kimi çıxış edir. Bu istiqamətdə görülən işlər bir daha təsdiqləyir ki, ordu təhsili sahəsində innovativ yanaşmalar ölkənin təhlükəsizlik və müdafiə sisteminin keyfiyyətli kadrlarla təmin edilməsində həlledici rol oynayır.

**Hərbi-elmi şöbə rəisinin müavini polkovnik-leytenant Vüqar Şirinov**

## TİBB XİDMƏTİ VƏZİFƏLƏRİNİ VİCDANLA YERİNƏ YETİRİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı



olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.

16075 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidməti rəisi tibb xidməti mayoru Zaur Məsimov şəxsi heyətin tibbi təminatını həyata keçirir, sanitariya-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.

Tibb xidməti mayoru Z.Məsimov bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb xidmətinin hərbi qulluqçuları – tibb məntəqəsinin feldşeri kiçik gizir Zəhra Novruzova, aptek rəisi-feldşer gizir İsaq Əmənov, sanitar-təlimatçı, dezinfektor baş çavuş Şəhla Əhmədova qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər. Belə ki, gündəlik olaraq əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargahın binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

Xidmət rəisi söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət qənaətbəxşdir. Həmçinin qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələrdə gündəlik olaraq, səhər və axşam saatlarında termometriya aparılır.

**kapitan Şahin Cəfərzadə**

## GEYİM FORMASININ DÜZGÜN DAŞINMASI DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILIR

Hərbi qulluqçular tərəfindən hərbi geyim formasının düzgün daşınması onların nizam-intizamını və nümunəvi xidmətini şərtləndirən əsas amillərdəndir. Daxili Qoşunların hərbi qulluqçularının bədən ölçülərinə uyğun, keyfiyyətli geyim və əşya əmlakları ilə vaxtında təmin olunması komandanlığın diqqət mərkəzində saxladığı əsas məsələlərdən biridir.

Qeyd edim ki, qoşunlarda hərbi geyim formasının düzgün daşınması daxili işlər naziri tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim formasını daşıma Qaydaları" haqqında qərarının tələblərinə əsasən tənzimlənir.

Eyni zamanda hərbi qulluqçuların geyim təminatının lazımi səviyyədə həyata keçirilməsinə aidiyyəti vəzifəli şəxslər cavabdehlik daşıyırlar. Bu baxımdan hərbi hissələrin əşya xidməti rəislərinin də üzərinə bir sıra mühüm vəzifələr düşür.

67987 saylı hərbi hissədə olarkən şəxsi heyətin geyim təminatının vəziyyəti və bundan irəli gələn bir sıra tapşırıqların icrası ilə bağlı material hazırlamaq qərarına gəldim.

Əşya xidmətinin rəisi mayor Valeh Mənsimov qeyd etdi ki, hərbi qulluqçuların əşya əmlakları ilə təminatı şəxsi heyətin siyahı sayına uyğun olaraq tərtib olunan müvafiq hesabat-sifarişlərə əsasən həyata keçirilir. Bü-



tün əşya əmlakları 64412 saylı hərbi hissədən - mərkəzi anbardan alınır və şəxsi heyətə paylanılır. Hərbi hissənin əşya əmlakları ilə təminatı müvafiq plan üzrə ildə 2 dəfə - yay planı üzrə aprel ayının, qış planı üzrə oktyabr ayının sonuna kimi aparılır. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları isə geyim və yataq əmlakları ilə təminat normasına uyğun olaraq təmin olunurlar. Gündəlik tələbatda nəzərdə tutulmuş geyim və təsərrüfat əmlakları bölüklərə ayda 1 dəfə, şəxsi heyətə isə 15 gündən bir paylanılır.

Mayor V.Mənsimov onu da vurğuladı ki, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının lazımi əşya-əmlaklarla vaxtında təmin olunmasına xüsusi diqqət yetirilir. Bununla əlaqədar geyimlərin fərdi qaydada bədən ölçülərinə uyğunlaşdırılması, sanitar təmizlənmə və digər məsələlər nəzarətdə saxlanılır. Həmçinin bölmələrdə və anbarlarda əşya, təsərrüfat ləvazimatlarından və mədəni-maarif vasitələrindən düzgün istifadə olunması, onların qorunub saxlanılması və uçotunun aparılmasına diqqət yetirilir. Yerbəyer mərasimindən sonra günün nizam qaydalarına əsasən məişət və əmlak saxlama otaqları yoxlanılır, kazarmada çarpayılar yığılır. Həftədə bir dəfə əmlaklar camaşırxanaya təhvil verilir, hər həftənin dördüncü günləri avadanlıqlara texniki qulluq göstərilir.

Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan xidmət rəisi il ərzində aparılan yoxlamalar zamanı xidmətdə heç bir nöqsanın olmadığını xüsusi olaraq vurğuladı. O, xidmətin uğurlu təşkilində kargüzar çavuş Elvina İbrahimovanın fəaliyyətini müsbət qiymətləndirərək onun da üzərinə böyük məsuliyyətin düşdüyünü sözlərinə əlavə etdi. Bildirdi ki, çavuş E.İbrahimova xidməti vəzifələrin öhdəsindən layiqincə gəlir, ona verilən bütün tapşırıqları, sənədlərin qəbulu, tərtibatı, dövriyyəsi işini keyfiyyətlə yerinə yetirir.

Mayor V.Mənsimov camaşırxanada geyimlərin təmizlənməsi, qurudulması, ütülənməsinin müasir standartlara uyğun avadanlıqlarla həyata keçirildiyini də söylədi. Bu işlərə mülki işçilərin cəlb edilməsini olduqca təqdirəlayiq hal kimi qiymətləndirərək, hərbi qulluqçuların bütün səylərini xidmətin yüksək səviyyədə təşkil edilməsinə yönəltdiklərini nəzərimizə çatdırdı.

**kapitan Nigar Ağayeva**

### İdman

## DAXİLİ QOŞUNLARIN YIĞMA KOMANDASI YARIŞIN QALİBİDİR

May ayının 7-8-də Daxili İşlər Nazirliyinin aparatı və Bakı şəhəri polis orqanları arasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib.




Daxili Qoşunların yığma komandası yarışda 8 nəfər idmançı və 1 nəfər nümayəndə ilə təmsil olunub. Komanda üzvlərindən 99713 saylı hərbi hissədən baş leytenant Əziz Qurbanov 80 kq, Hərbi İnstitutdan kursant Cavid Cəmilov 73 kq çəki dərəcələrində I yeri, 67987 saylı hərbi hissədən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Fəqan Əliyev 67 kq, çavuş Niyaməddin Hüseynov 97 kq çəki dərəcələrində II yeri və çavuş Müzəffər Ağayev +97 kq çəki dərəcəsində III yeri qazanıblar.

Daxili Qoşunların yığma komandası 13 komanda arasında I yerə layiq görülüb. Komandamıza növbəti yarışlarda uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

### NÜMUNƏVİ XİDMƏT

## PEŞƏKARLIĞI İLƏ FƏRQLƏNƏN XÜSUSİ TƏYİNATLI

Daxili Qoşunların sıralarında hərbi xidmət keçən baş çavuş Əhməd Cahangirli öz intizamı və əzmkarlığı ilə fərqlənir. Hərbçi peşəsinə ürəkdən bağlanan baş çavuş Ə.Cahangirli bu illər ərzində ona göstərilən etimadı doğruldub.



O, 1994-cü ilin yanvar ayının 6-da Qax rayonunun Qıpçaq kəndində doğulub. Orta təhsilini 2000-2011-ci illərdə doğma kəndindəki Mehdi Ziyadov adına tam orta məktəbdə alıb. 2012-ci ilin yanvar ayından 2013-cü ilin iyul ayınadək Daxili Qoşunların 12565 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Bundan sonra müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunan baş çavuş Ə.Cahangirli 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin atıcısı vəzifəsinə təyin edilib. O, Daxili Qoşunların müxtəlif hərbi hissələrində xidmət edib. 2021-ci ilin fevral ayından 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin yarımqrup komandiri vəzifəsindədir.Təyin edildiyi vəzifələrdə müsbət xarakterizə olunub, komandirlər tərəfindən dəfələrlə mükafatlandırılıb. Hərbi kollektivdə silahdaşlarının hörmətini qazanıb.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda vuruşub. Azərbaycan Respublikası Prezidentinin 24, 25 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Ə.Cahangirli "Cəbrayılın azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamına əsasən "Vətən müharibəsi iştirakçısı", müdafiə nazirinin 24 dekabr 2020-ci il tarixli əmri ilə "Şücaətə görə" və daxili işlər nazirinin 29 iyun 2022-ci il tarixli əmri ilə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.

Yüksək döyüş və mənəvi-psixoloji hazırlığını qoruyub saxlayan və daim təkmilləşdirən xüsusi təyinatlıya şərəfli xidmətində uğurlar arzulayırıq.

**kapitan Şahin Cəfərzadə**

## MƏHARƏTLİ VƏ İNTİZAMLI SÜRÜCÜ

99713 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından biri də baş çavuş Cavid Həmidovdur. O, layiqli xidməti, nizam-intizamı ilə yoldaşlarına nümunədir.



Hərbi qulluqçumuz 1992-ci il fevral ayının 5-də Laçın rayonunun Lolabağırlı kəndində anadan olub. 2011-ci ilin iyul ayından 2013-cü ilin yanvar ayınadək müddətli həqiqi hərbi xidmət keçib. 2013-cü ilin iyul ayından Daxili Qoşunların sıralarındadır. Müxtəlif hərbi hissələrdə vəzifələrini keyfiyyətlə yerinə yetirib.

2024-cü ildən xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun sürücüsü vəzifəsində xidmətini davam etdirir. Daim üzərində çalışır, özünə qarşı tələbkardır. Hərbi xidmətə və qoyulan tapşırıqların icrasına ciddi münasibət ilə seçilir. Əzmkarlığı ilə yanaşı, lazım olduqda yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir.

Baş çavuş C.Həmidov həm də Vətən müharibəsi iştirakçısıdır. Torpaqlarımızın işğaldan azad olunması üçün aparılan 44 günlük döyüş əməliyyatlarında cəsarətlə döyüşüb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının 25 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə", həmçinin Azərbaycan Respublikasının Baş Nazirinin 21 aprel 2022-ci il tarixli sərəncamına əsasən "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb.

**kapitan Xədicə Hacızadə**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan baş gizir Mübariz Əsgərovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı baş çavuş Ömər Qasımova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı çavuş Şamil Baloğlanlıya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000